# “20 Yanvar - qürur günümüz”







1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30 da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. Sovet ordusunun xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda: yanvarın 25 də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur.

Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən otuz il keçir. Xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır. 13 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti 20 yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncam imzaladı. Sərəncamda deyilir: “ - Günahsız Qanlı Yanvar qurbanlarını əziz xatirəsini bir daha dərin hüznlə yad edərək, faciənin otuzuncu ildönümü ilə əlaqədar, Azərbaycan Respublikası Konsitutiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlasın və onun həyata keçirilməsini təmin etsin.”

ADMİU-da bu sərəncamdan irəli gələrək müxtəlif tədbirlər, tematik gecələr keçirilir və gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün silsilə tədbirlər hazırlanır. Universitetimizin səhnə danışığı kafedrasının əməkdaşları 15 yanvar 2020-ci il saat 14:00-da Teatr sənəti fakültəsinin Böyük zalında tələbələrlə birlikdə “20 Yanvar - qürur yerimiz” adlı teatrlaşdırılmış ədəbi-bədii gecə hazırlamış və tamaşaçılara təqdim etmişdir. Ədəbi-bədii gecəni LİDER TV bütünlüklə lentə almış və 20 yanvar günü efirdə yayımlanması üçün proqrama salınmışdır.

* * *

Mətnin bura qədər hissəsi Azərbaycan tarixinin ən ağrılı, ən dərdli, ən başlıcası, hər kəsi zaman-zaman düşündürəcək, həqiqətə daha çox yaxınlaşdıracaq faktlarla bağlıdır və bu mətni Mədəniyyət və İncəsənət Universitetinin tədbiri hazırlayan sənətçiləri tərəfindən yazıya alınıb. Əgər belə demək mümkünsə, rəsmi hissəni dəyişməyə lüzum görmədim. Səbəb; hər kəsin 20 Yanvar hadisələrini necə qavrayıbsa, eləcə də yazı görkəmində təqdim etməkdir.

(Davamı 16-cı səhifədə)

# “20 Yanvar - qürur günümüz”

*(Əvvəli 1-ci səhifədə)*



20 Yanvar tarixin bir səhifəsidir. Özüm bilərəkdən həyəcan gətirəcək epitetlər işlətmirəm. Çünki Azərbaycan tarixinin hansı qərinəsini çevirsən bu qədər, bəlkə, bundan da artıq ölüm və qan səhnəsi görərsən. Söhbət əgər qandan və ölümdən gedirsə, ən başlıcası, azadlıq naminə qan və can verməkdən gedirsə, 20 Yanvar da sıradan bir tarixdir...

...Cavanşir dövründə... Babək savaşında... Atabəylər zamanında... Səfəvilər əsrində... Rus-İran müharibələri cəngində... Cavad xan şəhidliyində... Gülüstan... Türkmənçay bölgülərində... Çarizm irticalarında... Azərbaycan Demokratik Respublikasının faciəli süqutunda... və nəhayət, sovet dövrünün aldanışlarında... yaşanan faciələr tarixi bir silsilədir... Və elə bunun üçün deyirəm ki, 20 Yanvar sıradan bir tarixdir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təşkil olunmuş “20 Yanvar - qürur günümüz” adlı ədəbi-bədii kompozisiyada Azərbaycan tarixinin əbədiyaşarı gününün mənzərəsini göstərmək məqsəd idi. Tədbirdə Azərbycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəhbərləri də tamaşaçı qismində idi.

Ssenari müəllifi və quruluşçu rejissor Əməkdar artist, dosent Mahirə Yaqubovanın səhnə işini əvvəlcə bədii yaradıcılıq motivi kimi qavramırdım. Mənə elə gəlirdi ki, bu hadisələr elə indi, həmin məqamda qaralıqdan görünən işığın altında baş verir. Və mən özüm də elə düz 30 il əvvəlki yaşımda Cəbrayıldan üzü Bakıya tərəf həmin mənzərəyə baxırdım. Çovuyan güllələrin atəşləri altında bəzən başımı aşağı əyir, bəzən həyəcanımdan köksümdə pırlayıb uçmaq istəyən ürəyimin üstünə əlimi basırdım. İxtiyar özümdə deyildi.

Başa düşürəm, tamaşa salonunda idim... Azərbaycanın görkəmli sənətkarları Ağalar Bayramovun, Azad Şükürovun iştirakı ilə dəyişən səhnələr məni yaşımın indiki təmkin zamanından gəncliyimin qaynar zamanına qaytarırdı. O həyəcanların altında necə sakit dayanmaq olardı?

Ağalar Bayramovun həyəcanlı səsi, qızğın temperamenti, damarlarda qanı qaynadır, coşğun bir əhval qarşıdan gələn fəlakətə doğru yürüş harayı çağırır. Az qala səsin bayraq ahənginə doğru uçmaq istəyirsən. Ən başlıcası, bilirsən ki, hələ yarı yolda vurulsan da, qanadların qırılsa da sinən parça-parça olsa da yenə uçmaq istəyirsən.

Səhnə dəyişir, tamam başqa əhval; soyuq, iliklərə işləyən bir sazaq insanın içindən keçir.

Azad Şükürovun təbii, astagəl nitqi durğun düşüncəni dağıdır, insanın varlığından gələn suallar doğurur: sən hansı tərəfdəsən? Bu suallar hər kəsi dara çəkir.

Gizlənə bilməzsən, kimliyini üzə çıxarmalısan, kimliyinlə görünməlisən. Sənətin gücü elə budur. O tərəfini üzə çıxarmağa səni vadar edir. Azad Şükürovun ağır, bir qədər də mistik səhnə obrazı insanı tale ilə üz-üzə qoyur. Və sən istər-istəməz tale ilə barışmazlıq tərəfinə keçirsən. Taleyinlə barışsan sağ qala bilərsən. Yaşamaq sənin üçün xəcalət olar. Barışmırsansa, can verməlisən, qan verməlisən.

Səhnəyə yeni çalar gəlir. Dərd anası səhnəyə daxil olur. Onun dağı-daşı ağladacaq gücdə olan naləsi divarlarda əks-səda verir. Bu, Yaqut Abdullayevadır. Əməkdar artist, böyük səhnə müəllimi, sənət fədaisi, səsi ilə səsində insanlığa çatdıracağı naləsilə hər kəsi tarixə qaytarmaq gücündədir. Haraya gedirsən get, harda olursan-ol, bu səs səninlə gedəcək, bu səs Azərbaycan anasının səsidir. Yaqut Abdullayeva məhz öz səsilə bu həqiqəti demək istəyir. Bu həqiqəti car çəkir. ...Və bu zaman təzədən səhnə dəyişir.

Ssenari müəllifi və quruluşçu rejissor Əməkdar artist, dosent Mahirə Yaqubovanın təfsirində səhnə edam mühiti göstərir. Kötük və doğranmış odunlar. Nə qədər ki, bu kötüyün yanındasan ölüm səninlə üzbəüzdür. Əlbəttə, rejissor yozumunda kötük və üst-üstə qalanmış odun, həm də ocaq mahiyyəti daşıyır. Bir ocağın işığına gəlmək bütün hallarda rejissor düşüncəsinin çoxqatlılığı tamaşaçını əhvaldan-əhvala keçirir. Bir an əvvəldə kimsənsə, bir an sonra tamam başqa adam olursan. Və buna təəssüf etmirsən, buna zaman dəyişməsi kimi baxırsan.

Ssenaridə istifadə olunan şeirlər Cəfər Cabarlı, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Vahid Əziz, Əjdər Ol, Əjdər Qəmgin... tanınmış Azərbaycan şairlərinindir. Və bu yerdə yeridir ki, deyim, nə qədər şairlər var Vətən var, nə qədər şairlərin şeirlərini ifa edə bilən sənətçilər var millət var, xalq var... Demək, yaşarı dil var.

Ümumi kompozisiyanın bütün iştirakçılarını burada sadalamaq, bəlkə də, mətnə ağırlıq gətirərdi. Ancaq iştirakçı tələbələrin adlarını yada salmamaq ən azı 20 Yanvar tarixinin mənəvi mühitinə etinasızlıq demək olardı.

Bu tədbirin mənəvi mühitində varislik mahiyyəti tələbələrin iştirakı ilə özünü təsdiq edir: Ələkbər Axundov, Röyal Allahverdiyev, Rafael Quliyev, Saleh Cümşüdlü, Elsəvər Rəhimov, Esmiralda Abdullayeva, Çinarə Qurbanova, Mehin Məmmədli, Çinarə Səmədova, Orxan İsrafilov, Aysel Feyziyeva... Bu gənclər Azərbaycan tarixinin qanlı səhnəsini, ağrılı dövrünü, acılı zamanını öz çıxışları ilə nəinki tamaşaçılara çatdırırlar, eyni zamanda həm də öz mənəviyyatlarına yazırlar. Axı onlar da bu zamanın övladlarıdır. Onların ifadə etmək istədikləri düşüncənin bircə adı var: 20 Yanvar qürur tariximizdir.



***Əli Rza XƏLƏFLİ,***
***Ceyhun ZALLI***
***19.01.2020***

Kredo 2020.- 20 yanvar.- S.1;16.